Hürriyyət Sərbəst SİZİN ÜÇÜN QƏZET
№05 (3248) 7 Fevral / 2023-cü il
www.hurriyyet.az / hurriyyet@mail.ru


# "Gözəgörünməz" sənət fədaisi



**Teatr sferasında səhnədənkənar personajlar deyilən bir anlayış var. Bu tip personajlar teatr dünyasında, ələlxüsus onun yaradıcılıq bəhrəsi olan tamaşa prosesində heç bir zaman səhnədə görünmür, lakin onların tamaşanın ərsəyə gəlməsi müddətimdə çəkdikləri əziyyət, sərf etdikləri zəhmət ümumi işi rövnəqləndirir və bir küll halında rejissor və aktyor yaradıcılığının məhsulu olan tamaşanın meydana çıxmasına yardım edir. Buraya işıqçını, səhnə maşinistini, səs effekti və qrim ustasını, musiqi tərtibatçısını, quruluşa tərtibat verən rəssamı, quruluş hissə müdirini, səhnədə dekorların qurulması üçün adi mismar vuran səhnə fəhləsini, tamaşadan və ya adi məşqdən öncə aktyorlara narahatçılıq yaratmasın və toz olmasın deyə səhnəyə adicə yaş əski çəkən xadiməni əlavə etsək nəhəng və möhtəşəm bir yaradıcılıq bəhrəsinin meydana gəlməsində neçə-neçə qüvvənin ümumi iş uğrunda - tamaşanın yaranması uğrunda bir araya gəlməsi faktı ilə qarşılaşarıq. Nə yazıq ki, biz tamaşaçılar bunu görməməzlikdən gəlirik, pyesin tamaşa halına gəlməsində min-bir əziyyətə düçar olan bu qəhrəmanlarımızın işinə qiymət verməkdən daha çox, səhnədə obrazları ifa edən aktyorlara, cüzi halda isə rejissorun işinə istiqamətlənir və qiymət veririk. Amma bu "gözəgörünməz" diqqət mərkəzində olmayan qəhrəmanlar tamaşanın yaranma prosesində bəzən çox ciddi və əsaslı rol oynamaqla həm rejissora, həm aktyorlara və digər texniki işçilərə daima dəstək olur, ümumi iş naminə əsl fədakarlıq nümunəsi göstərirlər. Bu personajların başında isə heç şübhəsiz ki, teatrın direktorları xüsusi və əlahiddə bir mövqe tutur.**

Əgər tamaşaçılar aktyorları, rejissorları, habelə bəstəkarları, rəssam və səhnə tərtibatçılarını tamaşanın finalında səhnəyə çıxıb təzim edən görürlərsə, teatr direktorları isə bu baxımdan demək olar ki, "kadr arxasında" qalmalı olurlar. Amma elə direktorlar da vardır ki, əksinə zaman-zaman heç də kadr arxasında qalmağı sevmirlər. Tamaşa bitər- bitməz, elə finalda təzim edən aktyorlarla birlikdə addımlayırlar.

Bu gün teatr direktorunu əsas vəzifəsi nədən ibarətdir və o hansı səlahiyyətləri daşımaq hüququndadır sualını cavablasaq dərhal söyləyə bilərik ki, teatrı idarə etmənin iki əsas modeli mövcuddur.

Birincisi - vahid rəhbərlik deyilən anlayışdır ki, burada işin başında tək bir şəxs durur: ya teatrın direktoru, ya da baş rejissoru. Həmin şəxslər istər yaradıcılıq problemlərinə, istərsə də inzibati idarə etmə və maliyyə məsələlərinə cavabdeh olmaqla böyük məsuliyyət daşıyırlar.

İkinci model isə bu saat demək olar ki, bütün teatrlarda tətbiq olunan səlahiyyətlərin direktor və baş rejissor arasında haçalandığı idari üsuludur, yəni yaradıcılıq işləri bilavasitə baş rejissorun üzərində olduğu halda, təşkilati, iqtisadi məsələlər direktorun payına düşmüş olur. Və təbii ki, bu vəzifə məsuliyyətli bir iş olmaqla böyük ciddiyyət, nizam-intizam tələb edir. Direktor rəhbər işçi mövqeyi tutmaqla incəsənət və mədəniyyət sahəsində peşəkar ali təhsilə malik olmalıdır. Onun vəzifəsi yalnız teatra müdirlik funksiyalarını yerinə yetirməklə məhdudlaşmır, o, həm də tamaşaların, eləcə də mədəni-asudə vaxtın təşkil olunma strukturunu, teatrın yerləşdiyi şəhər əhalisinin asudə vaxtının kütləvi təşkilinin forma, metodlarını, mədəniyyət, incəsənət sferasında elmi, texniki nailiyyətləri, mədəni-asudə vaxt atmosferində idarəetmənin, həmçinin iqtisadiyyatın əsaslarını, texniki personalla işin nəzəri, praktiki tərəflərini, işgüzar təmasın etikasını, hətta əmək müdafiəsinin norma və qanunlarını, təhlükəsizlik texnikasını da dərindən mənimsəməlidir.

Sadalanan bu xüsusiyyətlərin əksəriyyəti 20013-2020-ci illər arasında Mingəçevir Dövlət Dram Teatrının direktoru vəzifəsində çalışmış, hal- hazırda isə Ağdaş Regional Mədəniyyət İdarəsinin Rəisi kimi fəaliyyət göstərən, geniş ideyasiyasi, mədəni səviyyəsi yüksək olan, həyatı dərindən və hərtərəfli bilən, bu həyatın hər faktını düzgün, doğru qiymətləndirməyi bacaran, xüsusilə teatr daxili münasibətləri, etik norma və qaydaları bir araya gətirib tənzimləyən Səxavət Məmməvova aiddir.

Səxavət Məmmədov bir direktor olaraq daima yaradıcılığın keşiyində dayanan, öz hərəkət və fəaliyyəti ilə dramatik tamaşa adlanan mürəkkəb bədii əsərin ərsəyə gəlməsi üçün kollektivə yardım edən şəxsiyyət kimi tanınmış və formalaşmışdır.



O, teatrın çalışma qrafikasını doğru və səlist planlaşdırmağı, eləcə də teatrın fəaliyyətindən maliyyə, vəsait, gəlir məsələlərini əldə etməyi və düzgün tənzimləməyi bacaran təcrübəli bir direktor kimi fəaliyyət göstərmişdir. S. Məmmədov hər zaman çalışmış ki, tamaşa yaransın və onun səhnə ömrü uzun olsun. Vaxtı ilə mən Mingəçevir Dövlət Dram Teatrında baş rejissor vəzifəsində işləmiş olduğumdan, teatrda müxtəlif tipli aktyorlar çalışdıqları üçün Səxavətin onların hamısı ilə yaxın təmasa girib ünsiyyət qurmasının və bu aspektdə özünü mükəmməl bir psixoloq, bacarıqlı, təcrübəli siyasətçi kimi göstərə bilməsinin dəfələrlə şahidi olmuşam. Burada özəl, mürəkkəb və xüsusilə ziddiyyətli xarakter və fərdiyyətə xas olan və təbii ki, hər hansı başqa bir yerdə çalışmaqda çətinlik çəkən, qazanc yollarını yalnız teatrın təmin etdiyi insanlar fəaliyyət göstərirlər. Özlərini müxtəlif şəkildə bəyan etdiklər üçün, onların mənəvi-psixoloji dünyasını bilmək, anlamaq, yeri gələndə onların dərdinə şərik, həmdərd olmaq və mərhəmət göstərmək zəruriyyəti yarandığı zaman Səxavət bu mənada hər zaman istər yaradıcı kollektivin, istərsə də texniki heyətin yardımına gəlmiş, onlara mənəvi dəstək olmuşdur.

Məsələn, hər hansı bir tamaşanın premyerası ərəfəsindəki ən azından iki həftə önçəki panoramaya nəzər salsaq, yaradıcı və texniki heyətin praktiki olaraq hamılıqla teatrda əsəb sisteminin tarıma çəkildiyi və hamının bir növ isterik duruma düşdüyü, gərgin, sanki az qala kazarma abhavasında yaşanan bir təzahüratın hökm sürdüyünü görəcəyik. Belə həyəcan doğuran dəqiqələrdə onları mənəvi cəhətdən qidalandırmaq, onlara bir daha mənən dayaq olmaq, haradasa ürəyi yanmaq, məsələn, yeni kostyumunu bəyənməyən, amma ay boyunca bir çox tamaşada rol alan aktrisa ilə konfliktə girməyərək onu idarə etmək, halhazırkı, mövcud vəziyyətdən çıxış yolu axtarmaq və problemi çözmək kimi bir zəruriyyət meydana gəlir. İndiki durumda həmin aktrisa ilə ayırd etmək, yersiz mübahisəyə girişmək - işə xeyir gətirməz. Xeyir gətirməzsə, demək yaradıcılıqdan da danışmağa dəyməz. Burada mövcud vəziyyəti yalnız "sülh" yolu ilə çözmək mümkündür ki, S. Məmmədov hər zaman bu tipli situasiya və insidentlərlə qarşılaşarkən, onları özünəməxsus insani keyfiyyətləri ilə nizamlaya bilmişdir.

2015-2018-ci illər arasında Mingəçevir Dövlət Dram Teatrında baş rejissor olaraq çalışdığım müddət ərzində mən Səxavət müəllimdən hər zaman dəstək görmüşəm. Üç il ərzində hazırlamış olduğum 11 çalışmanı (bunların yeddisi böyüklər, üçü azyaşlı uşaqlar, biri ədəbi-bədii gecə, kompozisiya olmaq üzrə) ərsəyə gətirərkən Səxavət müəllim başqa direktorlar kimi heç də kabinetinə çəkilib oturmamış, hər zaman, hər an yanımda olmuş, tamaşaların ideya-bədii istiqaməti ilə maraqlanmış, təşkilati işlərdə mənə yaxından kömək etmiş, tamaşalarımın medya və informasiya vasitələri tərəfindən ətraflı şəkildə təbliğ edilməsi sahəsində mühüm addımlar atmış, çalışmalarımın bir küll halında tamaşaçının rəğbətini qazanması üçün əlindən gələni əsirgəməmiş, müxtəlif teatr festivallarında, qastrol səfərlərində çıxış etmək üçün razılıq əldə etmiş, yeri gələndə hazırlayacağım pyeslərin tamaşa halına gəlməsi, ideya-bədii cəhətdən sağlam olması istiqamətində əsaslı, dəyərli və dolğun məsləhətlər vermişdir. Bu da təsadüfi deyildir, çünki onun özü də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr sənəti üzrə rejissorluq fakültəsinin (qiyabi təhsil üzrə) məzunu olmuşdur.

Mənim həmin teatra baş rejissor təyin olunmam S.Məmmədovun da eyni il direktor təyin olunması dönəminə təsadüf edir. Biz teatra rəhbər vəzifələrə təyin olunarkən qarşımıza biri-birindən məsul və çətin şərtlər qoyulmuşdu. Sözsüz ki, ilkin mərhələdə uğurlu yaradıcılıq, repertuar zənginliyi və bununla da teatra tamaşaçı axını yaratmaq istəyi dururdu. Bir sözlə çətinliklər az deyildi. Onu direktor təyin edəndə ilk növbədə ilin sonuna qədər teatrda ona qədərki neqativ təzahürləri ləğv etməyi, tamaşaçı planını yerinə yetirməyi ve teatrı maddı sıxıntılardan qurtarmaq kimi bir problemi qarşısına bir şərt kimi qoymuşdular.

Səxavət müəllim, eyni zamanda repertuar zənginliyinə də xüsusi diqqət ayırırdı. Onun dəstəyi ilə dövlət sifarişi olan məşhur Qoqolun "Müfəttiş" pyesinə verdiyim quruluş, necə deyərlər, birdən-birə şəhəri silkələdi. Bu, indiyəcən görünməmiş bir sevgi və teatra aramsız bir axın yaratdı, kollektivlə şəhər camaatı arasında ünsiyyət, təmas körpüsünə çevrildi. "Müfəttiş" tamaşasının belə yüksək anşlaq verməsi başda Səxavət Məmmədov olmaqla teatr rəhbərliyinin düzgün, sınanmış yol tutmasından, onun bir direktor kimi peşəkarlığından, yüksək intellektə, malik olmasından, dövrün aktual problemlərindən, ictimai-siyasi hadisələrindən düzgün nəticə çıxarmasından xəbər verirdi.



Mingəçevir Dram Teatrında yaranmış yüksək ab-hava, qaynayıb-coşan yaradıcılıq ehtirası, samballı tamaşaların mətbuatda, radio və televiziyada təqdir olunması Səxavət Məmmədovun yaradıcılıq sevinci, sənət qələbəsi idi.

Bu, onun özünü də, çevrəsini də ilhamlandırır, daha gərgin işləməyə səsləyirdi. Onun yeni hazırlanacaq tamaşa ətrafında fikirləri, düşündüyü yeni planlar yaradıcı kollektivin ürəyindən xəbər verirdi. "Müfəttiş", "Lənkəran xanının veziri" "Bir eşqin nəticəsi". "Ər və arvad","Bir saat xəlifəlik", "Gəl, qohum olaq" və s. bir-birinin ardınca afişaları bəzəyən yeni tamaşa adları, böyük nüfuz sahibi olan sənətkarların - dramaturq və yazarların, bəstəkarların, rəssamların, digər rejissorların teatra dəvət olunması, ayrı-ayrı tamaşalar üzərində müştərək iş gözəl səmərə verirdi. Sözsüz ki bu da Mingəçevirdə doğmalaşan bu sənət fədaisinə inamı, etibarı artırır və bu onu ruhlandırırdı.

S. Məmmədovun yaradıcılıq aləmində olan bu çalışqanlığı diqqət mərkəzindən yayınmamış, yüksək dairələr tərəfindən ona daha məsul bir iş - Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi kimi daha məsuliyyətli bir vəzifə tapşırılmışdır. Səxavət Məmmədovun bu vəzifənin öhdəsindən layiqincə gələcəyi heç bir şübhə doğurmur.

**Xəzər Gəncəli**
**Əməkdar artist, fəlsəfə doktoru**